SEÇKİLƏRİN MONİTORİNQİ
SMDT
DEMOKRATİYANIN TƏDRİSİ



# YERLİ İCMALARIN BACARIQLARININ ARTIRILMASI ÜZRƏ SORAQ KİTABÇASI

(İcma təşkilatları və vətəndaş təşəbbüs qrupları üçün)

İLKİN NƏŞR: 2012-Cİ İL
YENİLƏNİB: 2020-Cİ İL

BAKI-2021

MÜNDƏRİCAT

1. Giriş
2. Yerli icma maraqları naminə vətəndaş təşəbbüslər
3. Vətəndaşların Yerli icmaların maraqları naminə təşkilatlanması
4. Yerli icma maraqlarının müdafiəsinə cavabdeh dövlət qurumları
5. Yerli icma qurumlarının fəaliyyət prinsipləri
6. Yerli problemlərin həllində icma qurumlarının iştirakı

# GİRİŞ

Yaşadığımız kənd, qəsəbə, rayon və şəhərlərdə yerli səviyyəli müxtəlif problemlərin həlli bu ərazidə yaşayan əhali qrupları – icma və vətəndaş birliklərinin formalaşması, təşkilatlanlanması və fəallaşmasını zəruri edir. Şərti olaraq yerli icma qrupu adlandıracağımız bu cür vətəndaş birlikləri yerli səviyyədə həyat və yaşam tərzinin yaxşılaşdırılması, bölgəmizdə sosial şərait və infrastrukturun inkişafı, birgəyaşayış qaydalarının təkmilləşməsi və gələcək nəsillərə daha münbit imkanların ötürülməsi üçün mühüm əhəmiyyət daşıyır. Əgər nəzərə alsaq ki, hazırda ölkəmizdə sosial-iqtisadi çətinliklər və idarəçilikdə bürokratik məhdudiyyətlər vətəndaşların sosial rifahını adekvat şəkildə təmin etməyə imkan vermir, belə bir şəraitdə dövlət orqanlarının fəaliyyəti üzərində ictimai nəzarətin gücləndirilməsi xüsusi ehtiyaca çevrilib. Bu baxımdan vətəndaşların yerli səviyyədə qərar qəbuletmə prosesində iştirakı və yerli dövlət qurumlarının hesabatlılığının artırılması üçün yerli icma qruplarının mövcudluğu ildən-ilə aktualalşır. Təəsüf ki, hazırda ölkənin bir çox bölgələrində mövcud olan bəzi icma qrupları müvafiq bacarıq və texniki resurslarının çatışmazlığı səbəbindən davamlı və ardıcıl şəkildə yerli idarəçilikdə iştirak edə bilmirlər.

Qeyd edək ki, hazırda yerli icma qruplarının çoxalmasını və fəaliyyətinin güclənməsini zəruri edən səbəblərdən biri də ölkədə 1999-cu ildən başlayaraq formalaşmış bələdiyyə şuralarının özünü müstəqil yerli idarəetmə orqanı kimi təsdiq edə bimənəsidi. Bələdiyyə qurumları həm məhdud inzibati səlahiyyətləri, həm qeyri-demokratik seçkilər, həm də müstəqil təşəbbüslərin azlığı səbəblərindən yerli səviyyəli problemlərin həllində aparıcı instituta çevrilməmiş, bununla da yerli icma qruplarının formalaşması üçün əlverişli mühit formalaşdıra bilməmişdir.

Yuxarıda sadalanan səbəbləri nəzərə alaraq, Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi mövcud yerli icma qruplarının fəaliyyətinin gücləndirilməsi və yeni qrupların formalaşması üçün belə bir soraq kitabçasını nəşr edib. Bu kitabça yerli icma qruplarının yerli səviyyəli çeşidli problemlərin həlli yönündə təşəbbüslərinin formalaşması, bacarıqlarının artırılması və yerli icma quruculuğunda dayanıqlığın təmin olunmasına yardım məqəsdi daşıyır. Sizə tqədim edilən vəsait yerli səviyyədə idarəetmədə iştirak üzrə iki səbəbdən nəzərdə tutulub- 1) yerli icmalar aarsında təşkilatlanamnın təməl
əsasları və əhəmiyyətinin izahı, 2) yerli icma təşkilatlarının uğurlu fəaliyyətinə dəstək olmaq məqsədilə müasir metod və vasitələrin təqdimatı



## 2. Yerli icma maraqları naminə vətəndaş təşəbbüsləri

Vətəndaş iştirakçılığının ilkin şərtlərindən biri də vətəndaş təşəbbüslərinin mövcud olmasıdır. Belə bir təşəbbüslərin milli və ya yerli səviyyəli məsələlərin həlli üçün ortaya çıxması vətəndaş qrupunun hədəf və məqsədlərindən asılıdır. Təsəvvür edək ki, yerli səviyyədə uzun müddət həllini tapmayan və ya yenicə ortaya çıxan problemin həlli yönündə müvafiq icra strukturları, bələdiyyələr və həmin bölgədə yaşayan vətəndaşların hərəkətə gəlməsinə ehtiyac var. Amma bu hərəkətliliyi təmin etmək üçün ilk növbədə bir neçə vətəndaşın bir araya gələrək, ictimai təşəbbüslə çıxış etməsi lazımdı. Belə təşəbbüslər olmadan vətəndaşları narahat edən problemlər barədə cəmiyyətdə ya məlumatlar az olacaq, ya da bunu həll etməyə maraqlı tərəflər. Beləliklə, vətəndaşların istənilən növ təşəbbüskarlığı qarşıya çıxan ictimai xarakterli problemin həllinə olan ehtiyacı aktuallaşdıra, digər vətəndaşları da problemin həllinə səfərbər edə bilər. Məsələn, kiçik bir kənddə suvarma və ya kanalizasiya probleminin həlli yönündə əhalini bir araya gəlib, "sözbirliyi" ilə yerli icra hakimiyyəti orqanlarına müraciət etməsi, davamlı şəkildə bu bu problemləri qaldırması vətəndaş təşəbbüsü olmaqla vətəndaş iştirakçılığı nümunələrinə daxildir.

Yerli səviyyəli məsələlər üzrə vətəndaş təşəbbüsləri əsasən, yerli icmalar və vətəndaş qruplarının istəkləri və maraqlarının müdafiəsi məqsədilə həyata keçirilən fəaliyyət sahəsidir. Bu fəaliyyətin başlıca cəhəti odur ki, təşəbbüsün əsas iştirakçıları yerli icma üzvləri, əsas hədəfləri isə yerli icmanın maraqları olur.

### *Bəs yerli icma nədir?*

Biz indiki halda icma terminini bir neçə aspektdən izah etməyə çalışacağıq.

Yerli icma eyni coğrafi ərazidə yaşayan, gündəlik və ya daimi olaraq eyni qayğıları və həyat şəraitini bölüşən əhali qrupu olmaqla ümumi maraqlar və ehtiyaclar əsasında yerli səviyyəli idarəçilikdə iştirak edə bilərlər.

Yerli icma üçün səciyyəvi cəhətlərdən biri coğrafi bağlılığıdır. Çünki eyni coğrafi məkanda - kənd, qəsəbə, şəhər və ya şəhər məhəlləsində yaşayan vətəndaşlar bir-birinə ərazi yaxınlığı ilə intqerasiya edir və ümumi maraqlara sahib olurlar.

Yerli icmaların güclənməsini şərtləndirən amillərdən biri icma üzvləri arasındakı sosial bağlılıqdır. Sosial bağlılıq eyni ərazidə yaşayan insanlar arasındakı tanışlıq, qonşuluq və yoldaşlıq kimi əlaqələrlə yanaşı eyni ərazidəki oxşar ehtiyaclar və problemlərin həlli naminə ümumi mənafe ətrafında yaxınlaşmanı, ortaq qayğıların mövcudluğunu və nəhayət əməkdaşlığı nəzərdə tutur.

Yerli icmalar üçün digər səciyyəvi hal həmin bölgənin sakinlər arasında yaşadıqları əraziyə mənəvi bağlılıqdır. Çünki yaşadığı bölgəyə mənəvi bağlılıq hiss edən, özünü həmin ərazinin bir parçası sayan insanlar icma qurucluğu işində fəallıq göstərərək, doğulub-yaşa dolduğu bölgəni qorumaq, daha da inkişaf etdirməyi özü və yaxınları qarşısında öhdəlik kimi qəbul eidr.

Beləliklə, yuxarıdakı səciyyəvi cəhətlərə əsasən iddia edə bilərik ki, ***yerli icmaların güclənməsi, müxtəlif birliklər formasında təşkilatlanması müvafiq coğrafi ərazidə yaşayan insanların özü və ətrafındakı insanlar qarşısında sosial və mənəvi-psixoloji bağlılığından qaynaqlanır, icmanın yerli səviyyəli problemlər naminə birgə fəaliyyəti zəruri edir. Bu baxımdan yerli icma təşkilatlarını***

***uğurlu və zəruri edən başlıca faktor onların ümumi maraqlar və qarşılıqlı öhdəliklər əsasında birləşərək, əməkdaşlıq şəraitində birgə təşəbbüslər nümayiş etdirməsidir.***

Yerli icma maraqları naminə fəaliyyət ilk növbədə vətəndaş təşəbbüsüdür. Bu cür təşəbbüslər bir vətəndaşın və ya bir neçə vətəndaşın birləşməsi nəticəsində ortaya çıxan qurumların yerli səviyyəli idarəçilikdə qərarların qəbulu prosesinə təsir göstərmək naminə başlayır. Bu proses davamlı və sistemli şəkildə qurulduqda bundan fayda götürən hər şeydən öncə yerli icmalar olur. Bu baxımdan yerli icmaların maraqları naminə qurulan təşkilatların məqsədləri müxtəlif olsa da, əsas hədəfi yerli icmanın maraqları, əsas fəaliyyət forması icma üzvlərinin birgə əməkdaşlığıdır.

## 3. Vətəndaşların Yerli icmaların maraqları naminə təşkilatlanması

Qeyd etdiyimiz kimi yerli icma fəaliyyətinin əsasında vətəndaş iştirakçılığı dayanır. Vətəndaş iştirakı demokratiyanın təməl prinsiplərindən olan "hakimiyyətin mənbəyi xaldır" ideyasına əsaslanmaqla dövlətin idarə olunması, yerli və milli səviyyələrdə seçicilər, icmalar və digər vətəndaş qruplarının rəyinin nəzərə alınmasıdır.

***Vətəndaş iştirakı icmaçılığa əsaslanmaqla vətəndaşların qeyri-dövlət qurumları vasitəsilə yerli və milli səviyyədə qərar qəbulu prosesinə özlərini hazırlamaq və birgə əməkdaşlıq əsasında yürüdülən çalışmalarla təsir etmək və dəyişikliklər əldə etmək prosesidir.***

Vətəndaşların yerli icmanın həyatının yaxşılaşdırılmasıyla bağlı işlərdə və başqa sosial layihələrdə iştirakı ümumi maraqları ifadə edən xüsusi təşkilati strukturun, münasib təşkilatın yaradılması ilə asanlaşdırıla, müxtəlif vəzifələrin yerinə yetirilməsi ilə gücləndirilə bilər.

Vətəndaşların idarəetmədə iştirakı ilə bağlı Azərbaycan Respublikasının Konstitusiyasında aşağıdakı hüquqi normaları nəzərdə tutulub:

***Hakimiyyətin mənbəyi:*** Azərbaycan Respublikası Konstitusiyasının 1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

***Fikir və söz azadlığı:*** Azərbaycan Respublikasının Konstitusiyanın 47-ci maddəsində göstərilir ki, hər kəsin fikir və söz azadlığı vardır. Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz. İrqi, milli, dini, sosial *və hər hansı digər meyara əsaslanan* ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir.

***Sərbəst toplaşmaq azadlığı:*** Azərbaycan Respublikasının Konstitusiyasının 49-ci maddəsinə əsasən, hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı vardır.

***Məlumat azadlığı:*** Azərbaycan Respublikasının Konstitusiyasının 50-ci maddəsinə əsasən, hər kəsin qanuni yolla istədiyi məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.

***Cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ:*** Azərbaycan Respublikasının Konstitusiyasının 54-ci maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ vardır.

***Azad sahibkarlıq hüququ:*** Konstitusiyanın 59-cu maddəsinə əsasən, Hər kəs öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər. Dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirir.

***Dövlətin idarə olunmasında iştirak etmək hüququ:*** Azərbaycan Respublikasının Konstitusiyasının 55-ci maddəsinə əsasən, vətəndaşların dövlətin idarə olunmasında iştirak hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələr vasitəsilə həyata keçirə bilərlər.

***Müraciət etmək hüququ:*** Azərbaycan Respublikasının Konstitusiyasının 57-ci maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qayda və müddətlərdə yazılı cavab verilməlidir. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətini və ya işini tənqid etmək hüququ vardır. Tənqidə görə təqib qadağandır. Təhqir və böhtan tənqid sayıla bilməz.

***Birləşmək hüququ:*** Azərbaycan Respublikasının Konstitusiyasının 58-ci madddəsinə əsasən, hər kəsin başqaları ilə birləşmək hüququ vardır. Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir. Heç kəs hər hansı birliyə daxil olmağa və ya onun üzvülüyündə qalmağa məcbur edilə bilməz.

Vətəndaşlar yaşadıqları bölgədə üzləşdikləri problemləri və ya öz icmasının ehtiyaclarını çözmək üçün təkbaşına və ya başqaları ilə birgə müxtəlif çalışmalara başlaya bilərlər. Amma çox vaxt maddi və ya hüquqi-bürokratik əngəllər səbəbilə bu cür təşəbüslər ciddi uğurlar əldə etməyə imkan vermir. Belə olduqda müxtəlif dövlət və qeyri-dövlət quurmlarının yerli icmalarla bağlı narahatlıqların həlli naminə müdaxiləsi ehtiyacı yaranır. Gündəlik həyatımızda vaxtaşırı bu cür tendensiya ilə üzləşdiyimiz üçün bizim öz icmamızın müxtəlif problemləri, o cümlədən təhsil, mədəniyyət, sosial-iqtisadi, ətraf mühitinin mühafizəsi, asudə vaxtın səmərəli keçirlməsi, sağlamlıq və sair sahələrlə bağlı təşəbbüslər göstərməklə başqaları ilə birgə və ya qrup şəklində hərəkət etməyə ehtiyac hiss edirik. Bu isə ayrı-ayrı fərdlərin təkbaşına və ya başqaları ilə birgə müxtəlif sahələr üzrə vətəndaşlar üçün əlverişli mühitin yaradılmasına, bununla da vətəndaş iştirakçılığının bir hissəsinə çevrilməsinə gətirib çıxarır.

Yerli icma maraqları naminə vətəndaş təşəbbüslərinin davamlı şəkildə yürüməsi üçün müxtəlif icma qruplarının təşkilatlanma zərurəti yaranır. Təşkilatlanma prosesi isə yerli icma maraqları naminə uğurlu nəticələr əldə etmək üçün bu yöndə çalışmaların daha səmərəli olmasını zəruri edir. Yerli icma maraqları naminə yaranan təşkilatlar qurulduğu bölgədən və ya icmanın sosial ehtiyaclarından asılı olmayaraq, aşağıdakı ictimai xidmətləri həyata keçirə bilərlər:

- Yerli əhalinin ehtiyaclarının vaxtaşırı dəyərləndirilməsi, statistik məlumatların toplanması və icma üzvlərinin məlumatlandırılması;
- Yerli icmanın üzləşdiyi problemlərin müəyyən olunması və müvafiq problemlərin həlli yönündə vətəndaş təşəbbüslərinin hazırlanması;

- Vətəndaşlarla yerli idarəetmə orqanları arasında müxtəlif təşəbbüslərlə bağlı müzakirə mühitinin yaradılması;
- Yeeli icmanın yaşadığı inzibati ərazi (şəhər, qəsəbə və ya kənd ola bilər) üzrə infrastruktur layihələrinin icrası yönündə dövlət və qeyri-dövlət qurumları arasında əməkdaşlığın təmin olunması, maliyyə axtarışı və ianə toplanması üçün çalışmaların icrası;
- Yerli icmanın müxtəlif problemləri üzrə müxtəlif vətəndaş birliklərinin yaradılması, fərqli layihələrinin icrası üçün vətəndaş iştirakçılığının təbliğ olunması;

Yerli icmanın hər bir fərdi təkbaşına və ya başqaları ilə birgə yerli səviyyəli problem və məsələlərin həlli naminə vətəndaş qrupu, ictimai şəbəkə və ya ictimai birlik yarada bilər. Qeyd edək ki, milli qanunvericilik yerli səviyyəli təşəbbüslərlə bağlı vətəndaş qruplarının formal və qeyri-formal şəkildə qurulmasını vətəndaşlar üzərində öhdəlik şəklində qoymur. Ancaq yerli icma maraqları naminə yaranan vətəndaş biliyi qarşıya qoyulan məqsədindən asılı olaraq uzunmüddətli və ya qısa müddətli qaydada fəaliyyət göstərə bilər.

***Qısamüddətli məqsədlər naminə yaradılan vətəndaş birlikləri***

Qısa müddətli məqsədlər naminə yaradılan qurumların bir qayda olaraq, dövlət qeydiyyata alınmasına ehtiyac yaranmır və müvafiq sahə üzrə müvəqqəti ictimai birlik kimi fəaliyyət göstərirlər.

***Qısa müddətli məqsədlər naminə yaradılan vətəndaş birlikləri*** iki əsas kriteriya- coğrafi ərazi və spesifik sahə (kommunal, aqrar, ətraf mühit, təbii fəlakət, şəhər təsərrüfatı və sair) üzrə əsasən, icma üzvləri və ictimai birliklərin koalisiyası kimi təsis edilir. Bu cür qurumlar qarşıya qoyulan məqsəd qismən və ya tamamən əldə edildikdən sonra fəaliyyətini dayandırırlar.

Qeyd edək ki, Azərbaycan Respublikasında ictimai birliklər və təşkilatlarla bağlı qüvvədə olan qanunvericilik vətəndaşların könüllü birliklərinin qısamüddətli qaydada yaradılmasını, habelə Ədliyyə Nazirliyində qeydiyyata alınmadan fəaliyyətini qadağan etmir.

***Uzunmüddətli məqsədlər naminə yaradılan vətəndaş birlikləri***

Uzunmüddətli məqsədlər naminə yerli səviyyədə yaradılan vətəndaş birlikləri mövcud təcrübəyə əsasən ya qeyri-hökumət təşkilatı, ya da yerli Məhəlli Komitələri kimi təsis olunurlar.

***Qeyri-Hökumət Təşkilatları (ictimai birliklər və fondlar):***

Azərbaycan Respublikasında qüvvədə olan "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanuna görə, missiyasından asılı olaraq QHT-lər ictimai birlik və fond kimi təsis edilə bilərlər.

Qanuna əsasən **ictimai birlik** - təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, özfəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatdır.

Fondlar isə üzvləri olmayan, bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxslər tərəfindən əmlak haqqı əsasında təsis edilən və sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai-faydalı məqsədlər daşıyan qeyri-hökumət təşkilatlarıdır.

**"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanunun 6-cı maddəsinə görə**, QHT-lər Azərbaycan Respublikasında **ümumazərbaycan, regional və yerli statusla** təsis oluna və fəaliyyət göstərə bilərlər. QHT-nin fəaliyyət ərazisi təşkilat tərəfindən müstəqil müəyyən olunur. Qanuna əsasən ümumazərbaycan qeyri hökumət təşkilatlarının fəaliyyəti Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir. Regional qeyri-hökumət təşkilatlarının fəaliyyəti Azərbaycan Respublikasının iki və ya artıq inzibati ərazi vahidini əhatə etməlidir. Yerli qeyri hökumət təşkilatları bir inzibati ərazi vahidinin çərçivəsində fəaliyyət göstərirlər.

"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanunun 9-cu maddəsinə əsasən QHT-lərin təsisçiləri hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) və ya 18 yaşına (gənclərin ictimai birliklərinin təsisçiləri - 16 yaşına) çatmış fiziki şəxslər ola bilərlər. Qanunun 10-cu maddəsinə əsasən Azərbaycan Respublikasında **hər bir fiziki və hüquqi şəxs** (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) ictimai birliyin üzvü ola bilər.

Qeyd edək ki, Azərbaycan Respublikasında ictimai birliklərin qeydiyyatı ilə bağlı Ədliyyə Nazirliyinin fəaliyyətindən edilən şikayətlər bəzi hallarda vətəndaşları ictimai birliklər yaratmaqdan çəkindirir. Ancaq nəzərə almaq lzımdır ki, **qüvvədə olan qanunlar qeydiyyata alınmayan ictimai birliklərin fəaliyyətini qadağan etmir**.

### *Məhəllə Komitələri*:

***"Bələdiyyələrin statusu haqqında"*** Azərbaycan Respublikası Qanunun 31-ci maddəsinə müvafiq olaraq, bələdiyyələrin məhəllə komitələri bələdiyyələrin səlahiyyətlərinə aid məsələlərin həllində onlara kömək məqsədi ilə vətəndaşların yaşayış yeri üzrə öz təşəbbüsü ilə yaratdıqları könüllü birlikləridir.

***"Bələdiyyələrin məhəllə komitələri haqqında Nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə"***Azərbaycan Respublikası Qanununa əsasən, məhəllə komitəsi ərazi prinsipi üzrə yaradılır. Məhəllə komitəsinin fəaliyyət göstərdiyi ərazi ayrıca bir və ya bir neçə evin (məhəllənin) hüdudları ilə müəyyən edilir. Məhəllə komitəsi, həmin komitənin fəaliyyət göstərdiyi ərazidə yaşayan əhalinin yığıncağında 5-11 üzvdən ibarət tərkibdə açıq səsvermə yolu ilə iki il müddətinə seçilir. Yığıncaq komitənin fəaliyyət göstərdiyi ərazidə yaşayan və səsvermə hüququ olan vətəndaşların azı 15 faizi iştirak etdikdə səlahiyyətlidir. Həmin yığıncaqda məhəllə komitəsinin sədri, sədr müavini və katibi seçilir.

Məhəllə komitəsinin tərkibinə  həmin ərazidə yaşayan, yaşı 18-dən aşağı olmayan vətəndaşlar seçilirlər. Vətəndaşların yığıncağında iştirak edənlərin səslərinin yarısından çoxunu toplamış şəxslər bu komitənin tərkibinə seçilmiş hesab olunurlar. Məhəllə komitəsi vətəndaşların yığıncağının qərarı ilə vaxtından əvvəl tamamilə və ya qismən yenidən seçilə bilər. Vətəndaş yığıncaqları məhəllə

komitəsinin fəaliyyət göstərdiyi ərazidə yaşayan səsvermə hüququ olan şəxslərin azı 10 faizinin və ya məhəllə komitəsi üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır.

Məhəllə komitəsi, lazım olan hallarda, lakin iki ayda bir dəfədən az olmamaq şərti ilə çağırılır və üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli hesab edilir. İclasda görüləcək tədbirlərin siyahısını, növbəliyini müəyyən edir və görülmüş işlərin uçotunu aparır. Komitənin iclasları açıq keçirilir və qərarları açıq səsvermə vasitəsilə və adi səs çoxluğu ilə qəbul olunur və öz fəaliyyəti barədə altı ayda bir dəfə vətəndaşların yığıncağında hesabat verir. Yığıncağın keçirilməsi haqqında müvafiq məhəllə komi təsinin fəaliyyət göstərdiyi ərazidə yaşayan şəxslərə bir həftə qabaq məlumat verilməlidir.

***"Bələdiyyələrin məhəllə komitələri haqqında" Nümunəvi Əsasnamədə Məhəllə komitələrinin səlahiyyətləri nəzərdə tutulmuşdur:***

- Yerli əhəmiyyətli məsələlər barəsində bələdiyyələr qarşısında vəsatət qaldırmaq;
- .Yerli əhəmiyyətli məsələlərlə bağlı vətəndaşların yığıncaqlarını keçirmək;
- Yerli əhəmiyyətli məsələlərə dair bələdiyyə aktları yaratmaq təşəbbüsü göstərmək və həmin aktların layihə lərini əhalinin iştirakı ilə açıq iclaslarda müzakirə etmək;
- Müvafiq bələdiyyə torpaqlarından istifadəyə dair rəy və təkliflər vermək;
- Yaşayış məntəqələrinin abadlaşdırılması, yaşıllaşdırılması, sanitariya vəziyyətinin yaxşılaşdırılması, uşaq va idman meydançalarının, avtomobil yollarının, küçələrin, səkilərin, digər obyektləri tikintisi, yenidən qurulması, təmiri və saxlanması işində əhalinin iştirakın təşkil etmək;
- Təbiətin, tarix və mədəniyyət abidələrinin mühafiza haqqında qanunvericiliyə riayət olunmasına kömək etmək;
- Məktəb yaşlı uşaqların təhsilə cəlb edilməsində tədris müəssisələrində kömək etmək;
- Uşaq və gənclərin istirahəti, idmanla məşğul olmaq üçün şərait yaradılmasına kömək etmək;
- Fəaliyyət göstərdiyi ərazidə yaşayan imkansızlara, xəstələrə və ahıl vətəndaşlara yardım göstərmək;
- Yerli əhəmiyyətli məsələlərin həllində əhalinin təşəbbüskarlığının və özünüidarəetmə təcrübəsinin inkişafina kömək etmək.

- Məhəllə komitələri Azərbaycan Respublikasının qanunvericiliyinə və müvafiq bələdiyyənin nizamnaməsinə zidd olmayan digər səlahiyyətləri də həyata keçirə bilər.

## 4. Yerli icma maraqlarının müdafiəsinə cavabdeh dövlət qurumları

İcma təşkilatları yerli problemlərin həlli istiqamətində fəaliyyətini asanlaşdırmaq üçün problemləri müəyyən etməklə yanaşı rəsmi qurumların səlahiyyət və vəzifələri haqqında məlumatlı olmalı, onlara həll istiqamətində fəaliyyətə cəlb etmək üçün qanuni mexanizmləri bilməlidir.

## *Yerli icra hakimiyyətləri*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinə uyğun olaraq yerlərdə icra hakimiyyətini yerli icra başçıları həyata keçirirlər. İcra hakimiyyəti başçılarını Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

***"Yerli icra hakimiyyətləri haqqında" əsasnamədə yerli icra hakimiyyətləri başçılarının aşğıdakı əsas vəzifələri nəzərdə tutulub:***

- Yerli icra hakimiyyətinin başçısı ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə görə Azərbaycan Respublikasının Prezidenti qarşısında şəxsən məsuliyyət daşıyır;

- müvafiq ərazidə fəaliyyət göstərən mərkəzi icra hakimiyyəti orqanlarının yerli qurumları və digər dövlət qurumları ilə, habelə bələdiyyələrlə, qeyri-hökumət təşkilatları ilə və digər təşkilatlarla yerli icra hakimiyyətinin qarşılıqlı fəaliyyətini təmin edir
- dövlət proqramları və konsepsiyalarının, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təsdiq etdiyi tədbirlər planlarında müəyyənləşdirilmiş tədbirlərin müvafiq ərazidə icrasını təmin edir
- yerli icra hakimiyyəti başçısının aparatında, inzibati ərazi dairələri üzrə nümayəndəliklərində, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində, yerli icra hakimiyyəti başçısının yanında olan *orqanlarda* və tabeliyində olan hüquqi şəxslərdə vətəndaşların qəbulunu, onların ərizə, təklif və şikayətlərinə "*Vətəndaşların müraciətləri* haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətlərdə baxılmasını və onlara cavab verilməsini təmin edir;
- müvafiq ərazidə vətəndaşların hüquq və azadlıqlarının müdafiəsini və həyata keçirilməsini, mülkiyyətin və ictimai asayişin qorunmasını təmin edir;

- müvafiq ərazidə fəaliyyət göstərən mərkəzi icra hakimiyyəti orqanlarının yerli qurumları və digər dövlət qurumları ilə, habelə bələdiyyələrlə, qeyri-hökumət təşkilatları ilə və digər təşkilatlarla yerli icra hakimiyyətinin qarşılıqlı fəaliyyətini təmin edir;

- yerli icra hakimiyyəti orqanının fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, yerli icra hakimiyyətinin internet saytının yaradılmasını, malik olduğu və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın yeniləşdirilməsini təmin edir, ilin yekunları ilə bağlı yerli icra hakimiyyətinin fəaliyyətinə dair hesabatı dərc etdirir, öz fəaliyyətində ictimai rəyi nəzərə alır;

- mərkəzi icra hakimiyyəti orqanlarının, dövlətə məxsus müəssisələrin və səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərinin müvafiq ərazidə fəaliyyət göstərən yerli qurumları ilə, habelə bələdiyyələr və digər təşkilatlarla birlikdə şəhərin, rayonun, şəhər rayonunun sosial-iqtisadi vəziyyətini təhlil edir, inkişaf meyillərinin müəyyənləşdirilməsi,

sosial-iqtisadi inkişafın proqnozlaşdırılması və planlaşdırılması, əhalinin sosial əhəmiyyətli sifarişlərinin öyrənilməsi işini təşkil edir, ərazinin sosial-iqtisadi inkişafına dair təkliflər hazırlayır və aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edir;

- yerli icra hakimiyyətinin kütləvi informasiya vasitələri, siyasi partiyalar, dini qurumlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı fəaliyyətini təşkil edir;
- müvafiq ərazidə informasiyanın azad dövriyyəsinin təmin olunması, məlumatın azad şəkildə axtarılması, əldə edilməsi, istehsalı və yayılması üçün şərait yaradır;
- şəhərin, rayonun və şəhər rayonunun sosial-iqtisadi inkişafının təşviqinə dair kütləvi informasiya vasitələrinin proqram və layihələrinin həyata keçirilməsinə şərait yaradır;

***Yerli icra nümayəndəliyinin aşağıdakı vəzifələri vardır:***

- əhalinin sosial əhəmiyyətli sifarişlərini öyrənərək, yerli icra hakimiyyətinin başçısına təkliflər vermək;
- ərazidə fəaliyyət göstərən dövlət qurumları ilə, habelə bələdiyyələrlə, qeyri-hökumət təşkilatları ilə və digər təşkilatlarla nümayəndəliyin qarşılıqlı fəaliyyətini təmin etmək;
- ərazidə mənzil-kommunal təsərrüfatı və mənzil istismarı sahəsində fəaliyyət göstərən, məişət tullantılarının yığılması və daşınması, abadlaşdırma, yaşıllaşdırma, təmizlik və işıqlandırma işlərini yerinə yetirən qurumların (mənzil-kommunal istismarı və mənzil istismarı sahələri də daxil olmaqla) fəaliyyətini yerli icra hakimiyyəti başçısının müəyyən etdiyi məsələlər üzrə əlaqələndirmək;
- "*Vətəndaşların müraciətləri* haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada vətəndaşların qəbulunu həyata keçirmək, onların ərizə, şikayət və təkliflərinə baxmaq, lazımi tədbirlər görmək və nəticəsi barədə vətəndaşlara məlumat vermək;
- ərazidə yaşayan vətəndaşlara onların şəxsiyyətini, ailə vəziyyətini təsdiq edən arayışlar və digər arayışlar vermək;
- ilin yekunları ilə bağlı hesabat yığıncağında əhaliyə (ictimaiyyətə) nümayəndəliyin fəaliyyəti haqqında məlumat vermək;

***Bələdiyyə***

Bələdiyyə - qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz mülkiyyəti və yerli büdcəsi olur və o, Azərbaycan Respublikasının Konstitusiyası ilə və "Bələdiyyələrin Statusu haqqında" qanunla səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. Bələdiyyələr bərabərlik əsasında qurulur və fəaliyyət göstərirlər.

### *Azərbaycan Respublikası Konstitusiyası ilə bələdiyyələrin səlahiyyətləri*

- bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması , qanunla müəyyənn edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi;
- bələdiyyənin reqlamentinin təsdiq edilməsi;
- bələdiyyənin sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi;
- yerli vergilərin və ödənişlərin müəyyən edilməsi;
- yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi;
- bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam;
- mövcud qəbiristanlıqların qorunması, saxlanılması, idarə olunması, abadlaşdırılması, köçürülməsi, yeni qəbiristanlıq sahələrinin ayrılması
- kimsəsizlərə, xəstələrə, qocalara, maddi imkansızlara, valideyn himayəsindən məhrum olmuş, həmçinin istedadlı uşaqlara əlavə yardım edilməsi
- Yas mərasimlərinin keçirilməsi üçün nəzərdə tutulmuş tikililərin təmiri və yenilərinin inşası, mərasim *və dəfn* xidmətlərinin, o cümlədən bələdiyyənin ərazisində yaşayan əhalinin aztəminatlı təbəqəsindən olan mərhumların dəfn və yas mərasimlərinin təşkilinə yardım göstərilməsi.

### *Vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə müraciəti*

- Vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə fərdi və kollektiv surətdə müraciət etmək hüququ vardır.
- Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri vətəndaşların müraciətlərinə mahiyyəti üzrə bir ay ərzində cavab verməlidirlər.
- Bələdiyyələr torpaq sahəsi əldə etmək istəyən hüquqi və fiziki şəxslərin ərizələrinə 10 gün müddətində baxırlar.
- Bələdiyyələr hüquqi və fiziki şəxslərin yerli vergilər və ödənişlərlə bağlı borcları barədə onların yazılı müraciəti əsasında, 1 iş günü müddətində arayış verirlər.
- Vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə müraciətlərinə cavab verilməsi müddətlərinin və qaydasının pozulmasına görə İnzibati Xətalar Məcəlləsinin 594-cü maddəsinə əsasən vəzifəli şəxslərə xəbərdarlıq edilir və ya onlar yüz manat məbləğində, hüquqi şəxslər iki yüz manat məbləğində cərimə edilir.

## *5. Yerli icma qurumlarının fəaliyyət prinsipləri*

Qısamüddətli və uzunmüddətli məqsədlər naminə yaradılmasından asılı olamayaraq, yerli səviyyədə çalışan vətəndaş birliklərinin uğurlu və faydalı çalışmalar həyata keçirməsi üçün aşağıdakı prinsiplərə əməl etməsi zəruridir:

- ***Müstəqillik;***

Vətəndaş birliklərinin təməl prinsiplərindən biri özünü idarə əsasında yaranaraq fəaliyyət göstərməkdir. Bu cür qurumların dövlət orqanları, bələdiyyələr, biznes təşkilatları və siyasi qüvvələrin təsirlərindən uzaq və müstəqil qaydada fəaliyyət göstərməsi əhali araslında tərəfsizliyi barədə ictimai rəyin formalaşmasına, nəticədə ictimai etimadın yaranmasına kömək edə bilər.

- ***Könüllülük***

Vətəndaş birlikləri üçün vacib olan prinsiplərdən biri bu cür qurumlarda iştirakın könüllük əsasında qurulması, aparılan çalışmalarda təşkilat üzvləri ilə yanaşı üzv olmayan şəxslərin könüllü əsaslarla iştirak imkanlarının nəzərdə tutulmasıdır.

- ***Nizamlayıcı idaretmə və davranış qaydaları***

Birlik daxilində idarəetmə və davranış üzrə aydın və konkret qaydaların müəyyən edilməsi, bu cür qurumlar daxilində intizamlı və ədalətli idarəçiliyin təmin olunmasta kömək edir.

- ***Bərabərlik***

Birliklərin təsisçiləri və üzvləri arasında bərabər imkanların nəzərdə tutulması bu cür qurumların idarə olunmasi va bu qurumlarda daxili etimadın yaradılması baxımından vacibdir.

- ***Hesabatlılıq***

Hesabatlılıq startegiyası iki istiqamətdə - daxili və xarici auditoriyaya yönələrək qurulmalıdır.
Daxili hesabatlılıq qurumun rəhbər orqanları və şəxslərinin digər üzvlər qarşısında görülən işlər və çalışmalar barədə vaxtaşırı məlumatların təqdim edilməsini, bununla da birliyin bütün üzvləri arasında etimadın saxlanılmasını nəzərdə tutur.
Xarici auditoriya üçün hesabatliliq qurumla əməkdaşlıq edən şəxslər, o cümlədən könüllülər və hədəf qrupları qarşısında vaxtaşırı məlumatların təqdimatını, bununla da qarşılıqlı etimadın qorunmasını nəzərdə tutur.

- ***Şəffaflıq***

Əsasən könüllü ianələr və qrantlar asasında çalışan qurumlar üçün maliyyə şəffaflığı davamlı şəkildə təmin edilməlidir. Bu baxımdan təşkilatların maliyyə mənbələri və xərcləri barədə açıqlığın təmin olunması təşkilatın şəffalığı barədə ictimai rəyin yaradılamsına, bununla da ictimai etimadın yaradılamısna xidmət edir.

- ***İş bölgüsü və cavabdehlik***

Birlik daxilində səmərəli idarəçiliyin təmin edilməsi üçün müvafiq strukturların yaradılması və müəyyən edilmiş dönəm üzrə çalışması vacibdir. Ancaq bəzi hallarda struktruların seçilməsi üçün üzvlərin sayı yetərincə olmur. Bu baxımdan strukturlarım seçilməsi mümkün olmadıqda və bununla da planlaşıdırlan işlərin görülməsi üçün cavabdeh strukturlar olmadıqda üzvlər arasında iş bölgüsünün aparılması və cavabdehliyin təmin olunması nəzərə alınmalıdır.

## 6. Yerli problemlərin həllində icma qurumlarının iştirakı

İcma təşkilatlarının mövcudluğu yerli səviyyəli problemlərin həllində yerli idarəetmə orqanları üzərində ictimai nəzarətin yaranması və dövlət orqanlarının vətəndaşlar qarşısında məsuliyyətinin artmasına kömək edə bilər. Ancaq yerli icma qurumlarının yerli səviyyəli problemlərin həllində səmərəli, sistemli və ardıcıl iştirakı bu qurumların istifadə etdiyi fəaliyyət formalarından asılıdır. Bu baxımdan yerli icma qurumlarının aşağıdakı fəlaiyyət formalarından ardıcıl və səmərəli şəkildə istifadəsi tövsiyyə edərdik:

***Yerli səviyyəli ehtiyacların vaxtaşırı dəyərləndirilməsi***

Seçdiyi hədəf və məqsəddən asılı olaraq, yerli icma qurumları məşğul olduqları problem və məsələlər üzrə daimi olaraq araşdırma və qiymətləndirmə aparmalıdı. Bu proses qurumun nailiyyətlərini, habelə üzləşdikləri problemləri, o cümlədən hədəf seçilmiş sahələr üzrə yenilikləri ədalətli və obyektiv şəkildə dəyərləndirməklə yekunlaşmalıdı. Ədalətli şəkildə aparılan dəyərləndirmə qurumun cari və gələcək təşəbbüslərini planlaşdırmaq üçün münbit mühit yarada, çətinlik və problemlərin öhdəsindən gəlmək üçün aydın və optimal təsəvvür formalaşdıra bilər.

***Yerli icma üzvləri arasında ictimai rəyin öyrənilməsi***

Yerli icmalar yerli problem və ya məsələ ilə yanaşı, əhalinin müxtəlif qrupları, o cümlədən ekspertlər arasında təklif və baxışların öyrənilməsi üçün rəy sorğusu təşkil edə bilərlər.

Rəy sorğularının keçirilməsi müəyyən bir auditoriyanı əhatə etməklə obyektiv nəticələr əldə etməyə imkan verən vasitələrdən biridir.

İcma üzvləri sözügedən çətinliklərin öyrənilməsini icmanın, eləcə də yaşayış məntəqəsinin əksər və ya bütün üzvlərinin üzləşdiyi problemləri qeydə almaqla həyata keçirə bilərlər.

Qeyd edəki ki, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanuna əsasən, bələdiyyə ərazisində yerli rəy sorğusunu bu ərazidə yaşayan və yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşlar həyata keçirə bilərlər. Yerli rəy sorğusunun keçirilməsi haqqında qərarı bələdiyyə şurası öz nizamnaməsinə uyğun olaraq öz təşəbbüsü ilə və ya əhalinin tələbi əsasında qəbul edir. Bələdiyyə ərazisində yaşayan və seçki hüququ olan bütün vətəndaşların yerli rəy sorğusunda bilavasitə və könüllü iştirak etmək hüququ vardır. Yerli rəy sorğusunda səsvermə gizli keçirilir, vətəndaşların öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilmir. Bunununla yanaşı qeyd edək ki, müasir dövrdə müxtəlif vətəndaş qrupları sosial media vasitələri, o cümlədən internet proqramları əsasında onlayn sorğular keçirə bilərlər. Ancaq bu cür sorğular üçün yerli icma üzvlərinin internetə əlçatanlığı, sosial mediada istifadəçi sayının yetərli olması əsas şərtlərdən biridi.

## *Dövlət orqanlarından informasiyanın əldə olunması*

Yerli icma qurumlarının fəaliyyətində zəruri rəsurslardan biri də müxtəlif problemlərlə bağlı yetərli informasiyanın mövcud olmasıdır. Çünki istənilən şəkildə çalışmaların həyata keçirlməsi üçün yetərli səviyyədə məlumatın olması həm dəyərləndirmə, həm də planlama prosesinə töhfə veririr. Milli qanunvericilyə əsasən vətəndaşlar mərkəzi və yerli icra hakimiyyəti orqanlarına informasiya sorğusu ünvanlayaraq, vətəndaşları narahat edən məsələ üzrə mövcud statistikanı və ya dövlətin həyata keçirdiyi tədbirləri aydınlaşdıra bilərlər.
"İnformasiya əldə etmək haqqında" qanunda göstərilir ki, Azərbaycan Respublikasında informasiyanın əldə olunması azaddır. Hər kəs özü birbaşa və ya nümayəndəsi vasitəsilə informasiya sahibinə müraciət etmək, informasiyanın növünü və əldə etmə formasını seçmək hüququna malikdir.

## *İctimai dinləmələr və ictimai müzakirələr*

Dövlət orqanları və vətəndaşlar arasında keçirilən ictimai görüşlər cəmiyyəti narahat edən problemlərin müzakirəsi baxımından ən yaxşı imkandır. İctimai görüşlər zamanı hər hansı bir problem və yaxud layihə müzakirə olunur və bu görüşlər hökumət yaxud hər hansı yerli təşkilat tərəfindən təşkil olunur.

İctimai dinləmə və ictimai müzakirələrin təşkili ***"İctimai iştirakçılıq haqqında"*** qanunu ilə müəyyən olunur. Qanuna əsasən, dövlət və yerli idarəetmə orqanları, hüquqi şəxslər, vətəndaş cəmiyyəti institutları, ictimai şuralar və ayrı-ayrı vətəndaşlar ictimai dinləmə və ictimai müzakirənin təşəbbüsçüsü ola bilərlər.

İctimai dinləmənin və ictimai müzakirənin təşkilinə və keçirilməsi zamanı bir sıra tələb və qaydalar nəzərə alınmalıdır:

- ictimai dinləmənin və ictimai müzakirənin məqsədinin və mövzusunun dəqiq müəyyən edilməlidi;

- ictimai dinləmənin və müzakirənin mövzusu barədə maraqlı tərəflər öncədən məlumatlandırılmalı,

- ictimai dinləmələrə və müzakirələrə ekspertlərin və mütəxəssislərin cəlb edilməsi, problemin müstəqil və geniş təhlilinin aparılması, tələb olunduğu hallarda alternativ layihələrin və təkliflərin müzakirəyə çıxarılması təmin olunmalıdı;

- ictimai dinləmənin və müzakirənin mövzusuna aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarının səlahiyyətli nümayəndələrinin iştirakının təmin edilməsi;

İctimai dinləmə və ictimai müzakirə açıq keçirilir. İstənilən şəxs dinləmələrdə iştirak edə və müzakirə olunan məsələ barəsində öz mülahizəsini bildirə bilər.

## *Vətəndaş yığıncaqlarının təşkili*

“Bələdiyyələrin statusu haqqında” qanun 28-ci maddəsinə görə əhali sayı 500 nəfərdən az bələdiyyələrdə yerli əhəmiyyətli məsələlərə münasibət bildirmək, təkliflər irəli sürmək, kollektiv rəy söyləmək, qərarlar qəbul etmək məqsədi ilə həmin bələdiyyə ərazilərində vətəndaşlar öz yığıncaqlarını keçirmək təşəbbüsü ilə çıxış edə bilər.

Vətəndaş yığıncaqlarında həmin bələdiyyə ərazisində yaşayan 18 yaşı tamam olmuş hər bir vətəndaşın iştirak etmək hüququ vardır.

## *İctimai vəkillik*

İctimai vəkillik vətəndaş qruplarının hökumətin milli və yerli səviyyəli siyasətin formalaşmasına və ya dəyişdirilməsinə, siyasi, iqtisadi və ya sosial məsələlər üzrə qərar qəbulu prosesinə yönəltməklə planlaşdırılmış və təşkil olunmuş ictimai fəaliyyətdir.

Yerli səviyyəli məsələlərin həlli yönündə ictimai vəkillik kampaniyası zamanı vətəndaş qrupları əsasən mövcud situasiyanın dəyişdirilməsi, təkmilləşdirilməsi və ya əvvəlki vəziyyətinə qaytarılması üçün çalışırlar.

İctimai vəkilliyin səmərəliliyi üçün zəruri faktorlar - aydın məqsədlər, məlumat-statistika, auditoriya, mesajlar, şəbəkələşə, maliyyə axtrarışı, monitorinq və qiymətləndirmə kimi amillər öncədən nəzərə alınmalıdır.

## *Sosial media kampaniyaları*

Yerli səviyyəli məsələlərlə bağlı bölgə və ya milli səviyyədə ictimai məlumatlandırmanın təşkilinə imkan verən vasitələrdən biri də sosial media resurslarından səmərəli istifadədir. Bura xəbər saytları, Facebook, İnstagram, Twitter, Youtube və digərləri aiddir.

Sosial media kampaniyaları indiki şəraitdə vətəndaşların üzləşdikləri problemlərin ictimailəşdirilməsi və həlli üçün uğurlu və əlçatan vasitələrdən biridir. İnsanların kütləvi şəkildə istifadəçisi olduğu sosial şəbəkələr hər hansı problemin həlli naminə yerli icma qruplarının tribunasına çevrilə bilər.

Sosial mediada kampaniyalarının təşkili zamanı təbliğ olunan mövzu və irəli sürülən tələblər aydın və lakonik olmalıdı. Eyni zamanda sosial mediada yayılan posterlər, foto və videoların rəngi, həcmi və yazı üslubu adekvat olmalıdı. Daha çox aydın və yüksək vizual effekt verən materiallar hazırlanaraq yayılmalıdı. Kampaniya başladıqdan sonra ardıcıl şəkildə kampaniyanın məqsədi, vəziyyəti və gedişi barədə vaxtaşırı məlumatlar paylaşılmalıdır

Media kampaniyaları zamanı məqsəd və mövzuya müvafiq olaraq mərkəzi icra qurumlarının paylaşımlarda işarələnməsi, eləcə də müxtəlif fəal ictimai-sosial qrupların kampaniyaya cəlb olunması nəzərdə tutulmalıdı.

İcma qrurumları Facebook, İnstagram kimi sosialşəbəkələrdə gündəlik, həftəlik, aylıq icma xəbərləri paylaşan, izləyiciləri və media nümayəndələrini məlumatlandırmağa xidmət edən səhifələr və qruplar yarada bilərlər. Bu cür qrup və səhifələr ictimai dəstəyin əldə olunması baxımından da əhəmiyyətli ola bilər.

Qeyd edək ki, icma qrupları koronavirus pandemiyası kimi dönəmlərdə Zoom, Whatsapp, Skype kimi platformalar vasitəsi ilə dinləmələr, müzakirələr və başqa formatda tədbirlər təşkil edə bilərlər.

***Müraciət hüququ***

"Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanuna əsasən vətəndaş dövlət hakimiyyəti orqanı, idarə, təşkilat və müəssisənin fəaliyyətinin yaxşılaşdırılmasını, təhsil, elm, texniki, hüquq, yaradıcılıq və başqa sahələrlə bağlı məsələlərin həlli ilə əlaqədar təkliflə müraciət edə bilər. Vətəndaş ona məxsus hüquqların həyata keçirilməsi ilə bağlı tələblərini ərizədə qeyd etməklə müraciət edə bilər. Dövlət orqanına pozulmuş hüququn bərpası tələbi barədə şikayət edə bilər.

Müraciət vətəndaş tərəfindən imzalanmalı, vətəndaşın adı atasının adı, soyadı, ünvanı, yaxud işlədiyi yer göstəril məlidir. Əks halda müraciət anonim sayılır və ona baxılmır. Müraciəti qəbul etməkdən imtina qadağandır. Vətəndaşların tələbi ilə müraciətin qeydə alınma nömrəsi va tarixi ona bildirilir.

Dövlət hakimiyyəti orqanları və vəzifəli şəxsləri müracial də irəli sürülən məsələlərin həlli, onların səlahiyyətinə aid olmadıqda, bunları 5 gündən gec olmayaraq aidiyyəti üzrə təşkilata göndərir və bu barədə müraciət edənə məlumat verir, şəxsi qəbul zamanı isə hara müraciət etmək lazım olduğunu izah edir.
Qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, müraciətə qanunvericiliklə başqa müddət nəzərdə tutulmamışdırsa, 15 gün müddətində, istisna hallarda 1 ay ərzində baxılmalıdır.
Öz müraciəti barəsində qəbul edilmiş qərarla razılaşmayan vətəndaş bu qərarı qəbul etmiş orqanın və ya vəzifəli şəxsin bilavasitə tabe olduğu yuxarı orqana və ya vəzifəli şəxsə həmin qərar barəsində şikayət edə bilər.

Vətəndaşların müraciətlərinə cavab verilməməsi inzibati xətadır və İnzibati Xətalar Məcəlləsinin 594-cü maddəsinə əsasən, ***vəzifəli şəxslərə xəbərdarlıq edilir və ya onlar yüz manat məbləğində, hüquqi şəxslər iki yüz manat məbləğində cərimə edilir. Digər tərəfdən 1 ay ərizində vətəndaşa onun müraciəti ilə bağlı cavab gəlməzsə, o bununla bağlı onıline qaydada yaxud məktub formasında Ombudsmana yaxud məhkəməyə müraciət edə bilərlər.***

Qeyd edək ki, səlahiyyətli orqanlara yalnız yazılı surətdə müraciət etmək məsləhət görülür. Çünki yalnız bu halda vətəndaş sonradan məhkəmədə müraciət etdiyini sübut edə bilir. Müraciətin ünvanlanan orqana na zaman çatdığını bilmək üçün onu xəbərnaməli poçtla göndərmak daha məqsədəuyğundu.

***Bələdiyyə daxilində normativ aktlar yaratmaq təşəbbüsü hüququ***

"Bələdiyyələrin statusu haqqında" qanuna əsasən, bələdiyyənin nizamnaməsinə uyğun olaraq, əhalinin yerli əhəmiyyətli məsələlərə dair bələdiyyə aktları yaratmaq təşəbbüsü göstərmək hüququ vardır. Yerli əhəmiyyətli məsələlər barəsində əhalinin bələdiyyələrə verdiyi bələdiyyə aktlarının

layihələri ***hökmən*** əhalinin nümayəndələrinin iştirakı ilə açıq iclaslarda müzakirə olunmalı, nəticələri rəsmən elan edilməlidir.

### *İmzatoplama kampaniyası*

İmzatoplama kampaniyası hər hansı problemin həlli üçün daha geniş əhali qrupunun cəlb edilməsi məqsədi daşıyır. Vətəndaşlardan şəxsən imzatoplama yönündə çalışan icma qurumları bununla da hər hansı bir məsələ ilə bağlı (yerli problemin Milli Məclisdə səsləndirilməsi, büdcə xərclan nin açıqlanması, səlahiyyətli orqanlara təkliflərin gön dərilməsi və s.) yerli ictimaiyyətin bu prosesə cəlb olunmasını təmin edir. Bu kampaniya adətən kağız üzərində və ya elektron qaydada aparılır və vətəndaşlar şəxsən qoşulurlar.

### *Etiraz aksiyalar və digər toplantı formaları*

Bir sıra hallarda vətəndaşlar həll etmək istədikləri problemlərin həlli üçün sərbəst toplaşmaq azadlığından istifadə edirlər. Bu cür toplantılar yerli icra orqanlarını və ya digər dövlət qurumlarını həlli tələb olunan problem barəsində xəbərdar etməkvə ya həmin qurumlara etiraz xarakterli ola bilər. Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsinə əsasən, hər kəsin başqaları birlikdə sərbəst toplaşmaq azadlığı vardır. Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdaretməklə dinc, silahsız yığışmaq, yığıncaq, piket, mitinq, nümayiş, küçə yürüşləri keçirmək hüququ vardır.

"Sərbəst toplaşmaq azadlığı" haqqında qanuna görə, dövlət sərbəst toplaşmaq azadlığının həyata keçirilməsini təmin edir və bu Qanuna uyğun təşkil edilən toplantıların dinc və silahsız keçirilməsi üçün müvafiq tədbirlər görür.

## 6. Yerli icma qrupları üçün təşkilati inkişaf formaları

Yerli icma qruplarının yerli problemlərin həllində fəal və ardıcıl şəkildə iştirak etməsi üçün təşkilati inkişafla bağlı bəzi üsul və qaydaları mənimsəməsi vacibdir. Bu baxımdan davamlı və sistemli şəkildə yerli icma maraqlarını müdafiə etmək üçün icma qrupları aşağıdakı amilləri diqqətdə saxlamalıdı:
***Bilgi***: Səmərəli fəaliyyət üçün gərəkli malumatlar əldə edilməli, bu sahədə mövcud hüquqi normativ aktların və mövcud təcrübə araşdırılmalıdı.

***Resurslar***: Yerli səviyyədə icma təşkilatçılığı üçün vətəndaşların özlərinə məxsus dörd mühüm resursu bu prosesə töhfə etməsinə ehtiyac var:

i. vətəndaşlara müvafiq məsələ ilə bağlı araşdırma aparmaq, təfsilatlı bilgilər əldə etmək, görüş və tədbirləri həyata keçirmək üçün ***vaxt ayırmaları*** lazımdır.
ii. İcma maraqları naminə fəaliyyət üçün vacib olan ***maddi*** ehtiyacların ödənilməsi
iii. Davamlı fəaliyyətin qurulması üçün bəzi icma üzvləri özlərini bütünlüklə bu prosesə ***həsr etməlidirlər.***

iv. Yerli icma qrupları daim ***ekspert rəylərini*** əsas götürməli, çalışdıqları sahənin mütəxəxsislərinə etimad etməldirlər.

***İnsan resurslarının cəlb olunması***

Yerli icma maraqlarının uğurlu şəkildə müdafiəsi üçün icma qrupları öz resurslarını daim artırmağa çalışmalıdı. Bu baxımdan ən vacib resurslardan biri – icma qrupunun fəaliyyətinə nsan resurlarının cəlb olunmasıdı. Bu resursun artırılması isə yerli icma üzvləri arasında könüllülərin sayının çoxalması, müvafiq problemlər üzrə ekspertlərlə əməldaşlıq və təşkilatın idarəçiliyinə yeni insanların qoşulmasıdı.

Yerli icma qurumları öz fəaliyyətində şəffaflıq və hesabatlığı yüksək səviyyədə təmin etməklə icma üzvləri arasında ona olan maraq və etimadı artıra bilər. Bununla da nəzərdə tutulan hədəf və mqəsədlərlə bağlı təbliğat prosesi yeni üzvlər və könüllülərin yaranmasına, yerli icma üzvləri arasında fəal iştiraka səbəb ola bilər.

Uğurlu icma təşkilatçılığı quruculardan müzakirə, konsensus və əməkdaşlıq bacarıqlarının olmasını tələb edir. Yerli icma daxilində yaxşı qurulmuş kommunikasiya sistemi, məqsədə çatmaq üçün minimal rəqabət, nəticələrdən bütün sakinlərin və ya üzvlərin bəhrələnməsi, sadə tədbirlərdən mürəkkəbə doğru hərəkət yaxşı nəticələri şərtləndirir. İcmada fədakarlıq, vaxt ayırmaq, öhdəliklərə əməl etmək icmanın insan resursu üçün tələb olunan keyfiyyətlərdir. İcma təşkilatı daxilində bərabərlik, cavabdehlik, açıqlıq, hesabatlılıq, kollegiallıq və ədalətli iş bölgüsü kimi prinsiplərə daim əməl olunduqda könülülərin sayının artması gözləniləndi.

***Maliyyə və texniki resurslar***

İcmalar, sosial təşəbbüs qrupları, eləcə də qeyri-hökumət təşkilatları qeyri-kommersiya təşkilatlarıdır. Bu tip təşkilatlar hədəf və məqsədlərini reallaşdırmaq üçün maddi-texniki resurslara sahib olmalıdı. Çünki bu cür resurslar olmadan icma qruplarının dayanıqlı və davamlı fəaliyyəti ümkünsüz olur. Bunun üçün ilkin olaraq maliyyə axtarışı planın tərtib olunması vacibdir. Üzvlük haqları toplanması və könüllü ianə toplanışı icma təşkilatları üçün uğurlu vasitələrdən sayılır.

Qeyd edək ki, Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında qanunda İanənin tərifi verilmişdir.

İanə - qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qarşısında hər hansı məqsədə nail olmaq vəzifəsi qoymadan ona *Azərbaycan Respublikasının vətəndaşı, yaxud Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxs, xarici hüquqi şəxsin filial və ya nümayəndəliyi* Qanunla nəzərdə tutulmuş qaydada maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada verilən yardımdır.

İanələri qeyri-hökümət təşkilatları, siyasi partiyalar, dövlət qurumları ala bilərlər.

İcmalar öz daxilində ianə modellərini qura bilərlər. Lakin bu, qanunla təsbit edilmiş bir fəaliyyət deyil. İcma daxilində üzvlər öz aralarında icmanın problemlərini həll etmək yaxud icmanı inkşaf etdirmək üçün üzvlərdən ianə yığa bilərlər. Bu icma daxilində könüllük əsasında baş verən fəaliyyətdir. Bundan əlavə, icmalar sosial sahibkarlıq layihələri ilə, dayanıqlı maliyyə modelləri də qura bilərlər. Misal üçün, arıçılıq fəaliyyəti ilə məşğul olan bir icma yaşadığı ərazidə mağaza açır və bal satır. Bu zaman icma üzvləri öz aralarında razılığa gələrək, əldə edilən gəlirin bir hissəsini icmanın problemlərinə

yönləndirə bilərlər. Qeyd edək ki, bir çox yerli və beynəlxalq təşkilatlar sosial sahibkarlıqla bağlı biznes ideyalarına maliyyə ayırırlar. İcmalar bu dəstəkdən faydalanıb dayanıqlı maliyyə modeli qura bilərlər.

### *Təşkilati idarəçilik üçün təməl şərtlər*

***Dəyişikliklər naminə təşəbbüskarlıq*** - vətəndaşlar yen səviyyədə mövcud olan hər hansı durumun təkmilləşm va ya problemin həlli üzrə, yəni dəyişikliklər namina istar etməlidirlər.

***Fədakarlıq***- vatandaşlar narahatlıq yaradan məsələ ilə bağlı dəyişiklillər naminə fəaliyyətdə davamlı və fədakar olmalıdırlar; ilk uğursuzluqdan sonra nəyisə yarıma qoymaq fəal ictimai çevrə üçün sarsıdıcı olmaqla zərərlidir.

***Məlumat bolluğu***- bütün maraqlı tərəflər təşəbbüs edilən vətəndaş iştirakının hədəf və məqsədləri, fəaliyyət metod ları, təşəbbüsçüləri və ehtiyacları barədə məlumatlı olmal dirlar.

***Maarifçilik*** - vətəndaşların hüquqları, hökumətin isə cavabdehlikləri, həmçinin qərar qəbulu prosesinə təsir im kanları barədə bilgilər tədris edilməli və yayılmalıdır.

***Konstruktivlik*** - bütün tərəflərlə danışıqlar və əməkdaşlıq üçün dialoqa hazırlaşmaq, yerli hakimiyyətin vətəndaş larla ünsiyyətə meyli, açıq, anlayışlı və fəal olmasına hə vəsləndirmək vacibdir.

***Açıqlıq*** - vətəndaş iştirakına qoşulan tərəflər çalışmalıdırlar ki, nəzərdə tutulan tədbirlərin zəruriliyinə və doğruluğuna şübhələr yaranmasın; bunun üçün açıqlıq və aşkarlıq fəaliyyətə etimad yaradan mühüm amildir.

## İnformasiya sorğusu, Ərizə və İddia ərizəsi nümunələri

### *İnformasiya sorğusunun tərtib olunma qaydası*

Yazılı informasiya sorğusunda sorğuçunun adı və soyadı, informasiya sahibinin sorğunu təmin edə bilməsi üçün sorğuçuya aid əlaqə məlumatları (poçt və ya elektron poçt ünvanı, telefon və ya telefaks nömrəsi), sorğu edilən informasiyanın məzmunu, yaxud sənədin növü və ya adı, sənədin sorğuçuya bəlli olan rekvizitləri, informasiyanın təqdim edilmə forması göstərilməlidir. Əgər sorğuçu fərdi məlumat əldə etmək istəyirsə, sorğunu bilavasitə informasiya sahibinin vəzifəli şəxsinə verir və bu zaman şəxsiyyətini təsdiqləyən sənəd təqdim edir. Fərdi məlumat tələb olunduqda, yaxud dövlət və ya bələdiyyə qulluqçusu qulluq vəzifəsini yerinə yetirmək üçün sorğu verdikdə, informasiya əldə etməyin zərurəti əsaslandırılmalıdır. Yazılı sorğu şəxs, yaxud onların səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır.

## *İnformasiya sorğusu ilə müraciət olunan şəxsin vəzifələri*

Yazılı sorğunu qəbul etməkdən imtina qadağandır. Sorğu edilən informasiya informasiya sahibində yoxdursa, o, sorğunu 5 iş günündən gec olmayaraq aidiyyəti orqana göndərməli, bu barədə sorğuçuya məlumat verməlidir. İnformasiya sorğusu 7 iş günündən, istisna hallarda 14 iş günüdən gec olmayaraq icra edilir. İnformasiya sahibi müddəti uzadarsa, bu barədə sorğuçuya səbəblərini göstərməklə 5 iş günü ərzində məlumat verir. Bu müddətdə həmin informasiya öz operativliyini itirərsə, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavab verilməlidir. İnsan həyatı, sağlamlığı, yaxud şəxsin azadlığı üçün real təhlükə yarandığı hallarda axtarılması və hazırlanması müəyyən vaxt tələb edən informasiya 48 saat ərzində (bayram və istirahət günləri istisna olmaqla) təqdim edilir.

## *İnformasiya əldə etmək hüququnun pozulmasına görə şikayət etmək hüququ*

Sorğuçu informasiya sahibinin qanunsuz hərəkətlərindən məhkəməyə və ya İnsan Hüquqları üzrə Müvəkkilə şikayət etmək hüququna malikdir. Əgər şikayət ərizəsi ilə müraciət edənin fikrincə informasiya sahibi sorğunun icrasından qeyri-qanuni imtina etmişsə, yaxud qeyri-dəqiq və natamam informasiya təqdim etmişsə, bu halda şikayət ərizəsinə yazılı cavabın, yaxud qeyri-dəqiq və ya natamam hesab edilən sənədin surəti də əlavə edilməlidir."İnformasiya əldə etmək" haqqında Qanuna əsasən informasiya əldə etmək üçün sorğu ilə müraciət etmək lazımdır. İnformasiya sorğusunun təqdim edilməsinin 2 üsulu var: **sorğuçu (yəni informasiya əldə etmək üçün sorğu göndərən vətəndaş) informasiya sahibinin vəzifəli şəxsinə bilavasitə və ya telefonla müraciət etmək yolu ilə şifahi; sorğunu şəxsən təqdim etmək və ya informasiya sahibinə poçt, telefaks, yaxud elektron poçtla göndərmək yolu ilə yazılı.**



*1) **İnformasiya sorğusu***

Azərbaycan Respublikası
Nazirlər Kabinetinə
Sorğuçu: XXX
Ünvan: XXX
Mobil: XXX
E-mail:XXX

***İNFORMASİYA SORĞUSU***

*Xahiş edirəm,*

*İctimai informasiyalar kateqoriyasına aid olduğunu,qanunla açıq informasiyalar hesab edildiyini nəzərə alaraq **" Ölkədə məktəbyaşlı sağlamlığı məhdud uşaqların sayı nə qədərdir? Həmin uşaqların nə qədəri təhsilə cəlb olunmuşdur? İnkuliziv təhsilə cəlb olunan uşaqlarla bağlı dərslik və kurrikulum varmı? Nazirlər Kobinetinin 2005-ci il 3 fevral tarixli 20 N0 qərarı ilə təstiq edilmiş Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə inkişaf proqramı (2005-2009) gözlənilən nəticəni nə dərəcədə yerinə yetirmişdir? İnkuliziv təhsilə cəlb olunan uşaqlar üçün tədris plan və proqramları,dərsliklər və dərs vəsaitləri hazırlanmışdır?"** dair informasiyaları İnformasiya Əldə Etmək haqqında qanunun müddəalarını rəhbər tutaraq, 7 iş günü ərzində mənə verilməsini təmin edəsiniz.*

***İnformasiya verilməsi üsulu:** yazılı (məktubla yuxarıda göstərilən ünvana göndərməklə və ya elektron poçt vasitəsi ilə (yuxarıda qeyd olunan e-mailə):*

*İmza:*_____________
*Tarix:*

1) **Pulsuz hüquqi yardım ərizə forması**

*Şəki Apellyasiya Məhkəməsinin sədri cənab XXXXX*
*İddiaçı: XXX*
*Ünvan: XXX*

***ƏRİZƏ***

***Mənim cavabdeh Yevlax Rayon İcra Hakimiyyətinə qarşı maddi zərərin ödənilməsi tələbinə dair iş üzrə apellyasiya şikayətimə Şəki Apellyasiya Məhkəməsi 18 avqust 2020-ci ildə hakim (hakimin adı qeyd edilməlidir) sədrliyi ilə keçirilən məhkəmə prosesində baxılaraq apellyasiya şikayətinin təmin olunmaması və Yevlax rayon məhkəməsinin 20 may 2019-ci il tarixli qətnaməsinin dəyişdirilmədən saxlanılması müəyyən edilib.***

***Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 67-ci maddəsinə görə, 67.1. kassasiya və əlavə kassasiya şikayətləri, habelə məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizələr yalnız vəkil tərəfindən tərtib edildikdə icraata qəbul edilir. Kassasiya və əlavə kassasiya qaydasında, habelə məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxıldıqda işdə iştirak edən şəxslər məhkəmə iclaslarında yalnız vəkillə birgə iştirak edirlər. 67.2. Bu Məcəllə ilə vəkilin prosesdə məcburi iştirakı tələb olunduğu hallarda işdə iştirak edən şəxslərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, məhkəmə aktını qəbul etmiş məhkəmə işdə iştirak edən şəxslərin yazılı müraciəti əsasında vəkilini prosesdə iştirakını təmin edir.***

***Bildirirəm ki, mən II qrup əliləm və öz hesabıma vəkil tuta bilmirəm, buna mənim maddi imkanım çatmır. Azərbaycan qanunvericiliyi kassasiya şikayətlərinin yazılması və Ali məhkəmədə prosesdə iştirak etmək üçün vəkilin mövcudluğunun məcburiliyini nəzərdə tutduğuna görə öz hesabına vəkil tuta bilməyən insanlar üçün dövlət hesabına vəkil verilməlidir. Çünki Azərbaycan Respublikası Konstitusiyası hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnu və qanunla nəzərdə tutulmuş qaydada hüquqi yardımın ödənişsiz, dövlət hesabına göstərilməsini nəzərdə tutur (67-ci maddə). Buna görə də mənə kassasiya şikayətinin Ali Məhkəməyə göndərilməsi üçün dövlət hesabına vəkil təyin olunmalıdır.***

***Qeyd olunanlara əsasən Sizdən mənim Şəki Apellyasiya Məhkəməsinin 18 avqust 2020- ci il tarixli qətnaməsindəkassasiya şikayəti vermək üçün dövlət hesabına vəkilin təyin olunmasını təmin etmənizi xahiş edirəm.***

***Qoşma:***
***Əlillik vəsiqəsinin surəti***
***İmza:***

1) **İddia ərizəsi forması**

*Vətəndaşın işgüzar nüfuzunun, şərəf və*
*ləyaqətinin müdafiəsi mübahisələri*

*nümunə*

________________________________________
*məhkəmənin adı*

*İddiaçı*______________________________________
*MPM-nin 149.2.2-ci mad. iddiaçı barədə göstərilən məlumatlar*
*Cavabdeh*____________________________________
*MPM-nin 149.2.2-ci mad. cavabdeh barədə göstərilən məlumatlar*
*İddianın qiyməti*__________________________________
*(məbləğ manatla,əgər iddia qiymətləndirilməlidirsə)*

*Vətəndaşın şərəf və ləyaqətinin müdafiəsi və dəymiş*
*mənəvi zərərin əvəzinin ödənilməsi haqqında*

## İDDİA ƏRİZƏSİ

*“_____”___________20__ci ildə cavabdeh____________________(S.A.A) __________(iddiaçının fikirincə onun*
*şərəf və ləyaqətini alçaldan məlumatları yayan kütləvi informasiya və digər vasitələri göstərmək) barəmdə şərəf və*
*layaqətimi alçaldan həqiqətə uyğun olmayan məlumatlar yayılmışdır,yəni:______________ (yayılmış məlumatın məzmununu şərh etmək).*
*Göstərilən məlumatlar həqiqtə uyğun deyil,çünki__________(niyə məlumatlar həqiqətə uyğun gəlmir,aydınlaşdırmaq və qeyd olunanlar üçün sübutlar təqdim etmək vacibdir).*
*Cavabdehin hərəkətləri nəticəsində mən arzu olunmaz vəziyyətə düşdüm,xüsusilə__________ (nəticələri qeyd etmək-şəxsi və ya ailə həyatının sirrinin açılması,həkim sirrinin açılması,ailə gurmağın mümkün olmaması,iş və ya yaşayış yerinin məcburi dəyişdirilməsi,peşəkar fəaliyyətin davam etdirilməsinin mümkün olmaması,qanuni hüquqların və mənafeyinpozulması və s.) hansı ki,mənə mənəvi iztirablar formasında mənəvi zərər dəymişdir.*
__________________________*səbəbə görə çəkdiyim mənəvi iztirablar nəticəsində* ____________ *(xəstəliyi qeyd etmək) xəstəliyə tutuldum və*__________*(müddəti göstərmək) əmək qabiliyyətimi itirdim.Həmçinin cavabdehin hərəkətləri nəticəsində mənə fiziki iztirablar formasındada mənəvi zərər vurulmuşdur.*
*Ona görə də, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23 və 1097-ci maddələrinə əsasən*

*cavabdeh, mənimşərəf və layaqətimi alçaldan həqiqətə uyğun olmayan məlumatların yayılmasından ibarət olan hüquqa zidd hərəkətləri nəticəsində mənə dəymiş mənəvi zərərin (fiziki və mənəvi iztirabların) əvəzini verməlidir.*
*Cavabdeh tərəfindən mənə dəymiş mənəvi zərəri_____________(miqdarı rəqəm və söz ilə yazmaq) manat dəyərində qiymətləndirirəm,çünki________________________________(yaxşı olardı ki,bu qiyməti əsaslandırasız). Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23 və 1097-ci maddələrinə əsasən, xahiş edirəm:*

*1.Mənim şərəf və ləyaqətimi alçaldan__________barədə yəqin olmayan məlumatları_______ vasitəsi ilə________(təkzib etmə qaydasını qeyd etmək) təkzib etmək üçün cavabdehə bir vəzifə olaraq üzərinə qoyulsun və məcbur*
*olunsun.*
*2.Cavabdehdən mənim xeyrimə_______manat miqdarında mənə dəymiş mənəvi zərərin əvəzi tutulsun.*
*Qoşma:*
*1.İddiaçının şərəf və ləyaqətini alçaldan yəqin olmayan məlumatların yayılmasının sübutu (nəşriyyat, qəzetlərdən kəsilmiş parçalar və ya onlardan çıxarışlar,yığınacaq konfrans protokolları və s. cavabdehin və digərlərin çıxışlarını əks etdirən vasitələr və s.)___vərəqə;*
*2.Yəqin olmayan məlumatlarla iddiaçının arzu olunmaz vəziyyətə düşməsi səbəbi ilə əlaqənin olmasının sübutu__vərərə.*
*3.Xəstəlik tarixçəsindən çıxarış,əmək qabiliyyətini itirmək vərəqəsi və s.xəstəliyi təsdiq edən tibb sənədləri və vurulmuş mənəvi iztirablarla bu xəstəlik arasında əlaqənin olması____vərəqə;*
*4.Digər sübutlar____vərəqə;*
*5.Dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd___vərəqə;*
*6.İddia ərizəsinin surəti___vərəqə.*
*Ərizənin verilmə tarixi:"___"______20_ci il.*

*İddiaçının imzası*

*İstifadə olunmuş ədəbiyyat siyahısı*


*1) Azərbaycan Respublikasının Konstitusiyası*

*2) "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamə*

*3) "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu*

*4) "Bələdiyyələrin məhələ komitələri haqqında" Nümunəvi Əsasnamə*

*5) Yerli idarəçilikdə və Vətəndaş İştirakına dair Bələdçi, Bakı-2013*

*6) İcma qurucluğu: onu işlədən vasitələr*

SEÇKİLƏRİN MONİTORİNQİ
SMDT
DEMOKRATİYANIN TƏDRİSİ


***SMDT ilə əlaqə***

*Telefon:* (+994 50) 333 46 74

*E-mail:* info@smdtaz.org

*Web:* www.smdtaz.org

*Facebook: https://www.facebook.com/AZEelections*

*Twiiter: @SMDT_EMDS*

*Instagram: @SMDT_EMDS*